**Azərbaycan Universitetinin rektoru Səadət Əliyevaya**

Hörmətli Səadət xanım!

Rəhbərlik etdiyiniz Azərbaycan Universiteti ölkəmizin təhsilində müstəsna rol oynayır. Dövlət Müstəqilliyimizin tarixi ilə yaşıd olan bu təhsil ocağı 30 il ərzində ölkədə aparılan təhsilyönümlü islahatlardan bəhrələnərək işini ən müasir tələblər səviyyəsində qurmuşdur. Keçən dövr ərzində Universitetin məzunları respublikamızda, eləcə də ölkədən kənarda layiqincə xidmət etmiş, həm Azərbaycanımızın çiçəklənməsi yolunda fəaliyyət göstərmiş, eyni zamanda məzunu olduqları Azərbaycan Universitetinin adını uca tutmağa çalışmışlar.

Mən də bu Universitetin ilk məzunlarından biri olaraq burda təhsil almağımla qürur duyuram. Belə bir ali təhsil ocağının ilk məzunu olmaq mənim üçün şərəfdir. 20 ilə yaxın dövlət qulluğunda çalışdığım dövrlərdə, eləcə də indiki zamanda həmişə Azərbaycan Universitetini xoş xatirələrlə yad etmişəm. Bu Universitet mənə daim doğma və əziz olmuşdur.

Gənclik illərimizin ən gözəl anları olan tələbəliyimizin beşiyidir Azərbaycan Universiteti. Bizə ANA qucağı kimi əziz oldu bu Universitet. Biz burda böyüdük, püxtələşdik, pərvazlandıq.

Yubileyi münasibətilə doğma Universitetimi təbrik edirəm!

30 yaşın mübarək olsun, əziz Universitetim!

**Səmimiyyətlə,**
**Rövşən Rüstəmov**
**Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi**
**Suraxanı Şahmat Məktəbi MMC-nin direktoru**